# Dövlət Statistika Komitəsində "Statistik Potensialın Gücləndirilməsi (StatCAB) proqramı" çərçivəsində təlim kursu keçirilmişdir



2015-ci ilin 18-20 may tarixlərində Dövlət Statistika Komitəsinin Ticarət və turizm statistikası şöbəsində Türkiyə Statistika Qurumunun eksperti Muherrem Ozçelikin iştirakı ilə SESRİC tərəfindən maliyyələşdirilən "Statistik Potensialın Gücləndirilməsi (StatCAB) proqramı" çərçivəsində turizm statistikası üzrə təlim kursu keçirilmişdir. Təlim zamanı Türkstatın strukturu, səlahiyyət və funksiyaları barəsində qısa xülasə dinlənilmiş, turizm statistikası sahəsində müşahidələrin aparılması qaydaları, məlumatların əldə edilməsi məqsədilə tətbiq edilən sorğu formaları, ilkin məlumatların əldə edilməsi və işlənilməsi üsulları, yayımlanması haqqında ətraflı məlumat əldə edilmişdir.

Təlimdə gəlmə və getmə turizminə, həmçinin daxili turizmə dair statistik məlumatların əldə edilməsi məqsədi ilə sərhəd keçid məntəqələrində, ev təsərrüfatlarında aparlıan seçmə müşahidələrin təşkili, seçmə məcmunun müəyyənləşdirilməsi, sorğunun aparılması, baş məcmu üzrə toplu məlumatların əldə edilməsi qaydalarına dair Turkstatın təcrübəsi haqqında ətraflı məlumat verilmişdir. Təlim beynəlxalq təcrübəyə dair geniş müzakirələr ilə müşayiət olunmuşdur.

